

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 avqust 2025-ci il №58 (2967) https://mod.gov.az Qiymәti 30 qəpik


*Təlim*

## Azərbaycan Hərbi Dəniz Qüvvələrinin gücü daha da artır



*Güclü və müasir orduya sahib olmaq hər bir dövlətin milli təhlükəsizliyinin və suverenliyinin təminatıdır. Bu mənada, hərbi dəniz donanması, dəniz sərhədləri olan ölkələr üçün xüsusilə strateji əhəmiyyət daşıyır. Son zamanlar həyata keçirilən genişmiqyaslı hərbi dəniz təlimləri ölkəmizin müdafiə qabiliyyətini artırmaqla yanaşı, döyüş hazırlığı səviyyəsini də yüksəldir. Bu məqsədlə 2025-ci ilin hazırlıq planına əsasən, Azərbaycanın Hərbi Dəniz Qüvvələrində (HDQ) "Dəniz enerji infrastrukturunun mühafizəsi və müdafiəsi" mövzusunda döyüş atışlı taktiki təlim keçirildi.*

**Təlimin gedişi**

Səhərin erkən saatlarıdı. Şəxsi heyət gəmiləri "Döyüşə" və "Səfərə" hazır vəziyyətə gətirdi. Gəminin səfərə hazırlanması özlüyündə ciddi planlaşdırmanın, texniki yoxlamanın və yüksək dəqiqliyin vəhdətidir. Təşkilati hazırlıq şəxsi heyətin təlimatlandırılması ilə başladı. Ekipaj üzvlərinə marşrutun istiqaməti, icra olunacaq tapşırıqlar bir daha izah olundu. Bunlardan əlavə, təhlükəsizlik qaydaları, hava və naviqasiya xəritələri haqqında zəruri məlumatlar da bir daha diqqətə çatdırıldı. Təlimat başa çatdıqdan sonra hər kəs öz vəzifəsinə uyğun yerini tutdu.

Hərbi gəmilər artıq dənizə çıxmağa hazırdır.

Sahildə qalanlar gəmidəkiləri əsgəri salamla yola saldılar. Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətinin iştirakı ilə keçirilən taktiki təlim başlayır. Təlimə HDQ-nin sərəncamında olan bir çox gəmi və katerlər, eləcə də xeyli sayda şəxsi heyət cəlb olunmuşdu.

Plana əsasən, birinci mərhələdə gəmilər taktiki qruplar tərkibində formalaşdı, nəzərdə tutulmuş əməliyyat rayonlarını tutdu. Növbəti fəaliyyətlər planına əsasən, Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsinə daxil olmuş şərti düşmənin məhv edilməsi ssenarisi üzrə şəxsi heyətin iştirakı ilə keçirilən tapşırıqlar icra olundu. Düşmənin məhv edilməsi üzrə tapşırıqlar icra olundu. Düşmənin məhv edilməsi ssenarisi üzrə icra olunan tapşırıqlar zamanı əvvəlcə suüstü hədəflər məhv edildi. Daha sonra düşmənin hava hücumuna qarşı istilik və radiolokasiya manevrlərinin qoyulması tapşırıqları yerinə yetirildi. Şərti düşmənin hava hücumu vasitələri də hərbi dəniz donanmamızın şəxsi heyəti tərəfindən dəqiqliklə məhv edildi. Növbəti tapşırıq aşkar edilmiş üzən minaların zərərsizləşdirilməsi idi ki, qarşıya qoyulan bu tapşırıq da gəmi ekipajı tərəfindən peşəkarlıqla icra olundu. Axşam saatlarında təlimə cəlb olunmuş Dəniz xüsusi təyinatlıları və Dəniz piyada bölmələrinin şəxsi heyəti adada aşkar olunmuş silahlı qruplaşmaların yerləşdiyi müvəqqəti bazanın zərərsizləşdirilməsi çalışmalarını məşq etdilər. Bununla da təlimin birinci günü üçün nəzərdə tutulmuş tapşırıqlar uğurla icra olundu.

(Ardı 2-ci səhifədə)

## Ötən həftə 183 mina və 673 partlamamış hərbi sursat zərərsizləşdirilib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən 11-17 avqust tarixlərində icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 153, tankəleyhinə 30 mina və 673 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 1362,7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## “İdman döyüş qabiliyyətimizə müsbət təsir göstərir”



Döyüş hazırlığına müsbət təsir edən amillərdən biri də şəxsi heyətin fiziki hazırlığı və idman normativlərini bacarıqla yerinə yetirməsidir. Azərbaycan Ordusunda keçirilən təlimlər, məşğələlər və digər bütün fəaliyyətlər ordumuzun döyüş hazırlığının və müdafiə qüdrətinin ən yüksək səviyyəyə çatdırılmasına xidmət edir. Bu məqsədə çatmaq üçün şəxsi heyətin fiziki göstəricilərinin yüksək olması əhəmiyyətli rol oynayır.

(Ardı 7-ci səhifədə)

## “Nizam-intizam sıradan başlanır”



Bu gün bölmələrdə hərbi xidmət keçən gənclərə yüksək təlim keçirildiyi hamıya bəllidir. Onlar xidmətə gəldikləri gündən nizamnamə ilə təyin olunmuş fəaliyyətlə məşğul olurlar. Keçirilən məşğələlər gənclərin nizam-intizamlı, silahlardan istifadə etməyi bacaran, yüksək döyüş hazırlıqlı əsgərlər kimi formalaşmasında mühüm rol oynayır. Döyüş hazırlığı təkcə silahdan istifadə etməyi bacarmaq deyil, əsgərin fiziki hazırlığı, nizam-intizamı, döyüş ruhu da yüksək olmalıdır.

Nizam-intizam başlıca şərtdir. Nizami ordu olmasa, döyüş hazırlığını yüksəltmək mümkün deyil. Ona görə də ordu quruculuğunda daim diqqətdə saxlanılan məqamlardan biri də şəxsi heyətin nizam-intizamlı olmasıdır. Nizam-intizam isə sıradan başlanır. Gənclərin hərbi xidmətlə ilk tanışlığı da məhz sırada olur. Onlara sıranın müqəddəsliyi izah olunur; nizam-intizamlı olmaq, komandirlərin əmr və tapşırıqlarına sözsüz, şüurlu şəkildə əməl etmək, digər intizam xarakterli davranışların bünövrəsi məhz sırada qoyulur.

(Ardı 7-ci səhifədə)

## Aviasiya bölmələri ilə təlim-məşq uçuşları keçirilib



Cari ilin hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) təyyarə və helikopter bölmələri ilə təlim-məşq uçuşları həyata keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə pilotların uçuşun şərtləri və təhlükəsizlik qaydaları barədə nəzəri bilikləri yoxlanılıb, daha sonra uçuş heyətləri təlimatlandırılıb.

Təlim-məşq uçuşları zamanı bazalanma aerodromlarından müəyyən edilmiş marşrutlar üzrə havaya qalxma və yerə enmə, komanda-qərargah məntəqələri ilə qarşılıqlı əlaqədə hava və yerüstü hədəflərin aşkar edilməsi və digər fəaliyyətlər üzrə tapşırıqlar yerinə yetirilib.

Qeyd edək ki, təlim-məşq uçuşlarının əsas məqsədi aviasiya bölmələrinin döyüş hazırlığının və hərbi pilotların praktiki vərdişlərinin daha da artırılmasıdır.

## Hərbi Prokurorluqda "962" Etimad xətti yaradılıb

Prokurorluq orqanlarının fəaliyyətində operativliyin təmin edilməsi və vətəndaşların məmnunluq səviyyəsinin yüksəldilməsi istiqamətində mütəmadi olaraq işlər görülməkdədir.

Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həyata keçirilən tədbirlərin davamı kimi Baş prokurorun tapşırıq və tövsiyələri əsasında Hərbi prokurorun təşəbbüsü və rəhbərliyi ilə Hərbi Prokurorluqda aparılan köklü və intensiv islahatlar çərçivəsində "962" Etimad xətti yaradılıb.

Məqsəd Silahlı Qüvvələrdə korrupsiyaya qarşı mübarizə və ona şərait yaradan halların aradan qaldırılmasını, şəffaflığın artırılmasını, hərbi qulluqçular və onların ailə üzvləri ilə Hərbi Prokurorluq arasındakı etimadın möhkəmləndirilməsini, cinayətkarlığa və digər qanun pozuntularına qarşı tədbirlərin çevikliyini, vətəndaşların hüquqlarının daha etibarlı müdafiəsini, eləcə də müraciət imkanının asanlaşdırılmasını, bir sözlə, istənilən neqativ halın və ağır nəticənin vaxtında qarşısının alınmasını təmin etməkdir.

Bildirilib ki, aşkarlığın, əlçatanlığın və operativliyin təmin edilməsi məqsədilə müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməklə səs yazıları qeydə alınacaq və xətt fasiləsiz fəaliyyət göstərəcək. Müraciətlərin qeydə alınması və cavablandırılması respublikanın istənilən regionundan stasionar telefonlar, eləcə də mobil operatorlar vasitəsilə ödənişsiz həyata keçiriləcək.

# Azərbaycan Hərbi Dəniz Qüvvələrinin gücü daha da artır

**(Əvvəli 1-ci səhifədə)**

Təlimin keçirildiyi ərazidə Hərbi Dəniz Qüvvələrinin komandanı 1-ci dərəcəli kapitan Şahin Məmmədov taktiki təlimin növbəti günündə müdafiə naziri general-polkovnik Zakir Həsənova raport verdi. Komanda İdarəetmə Məntəqəsində təlimin mərhələləri və yerinə yetirilən tapşırıqları haqqında komandir heyəti məruzə etdi.

Məruzə edənlər bildirdilər ki, HDQ-nin döyüş, döyüş təminatı və təminat gəmilərinin, eləcə də Dəniz xüsusi təyinatlı və Dəniz piyada bölmələrinin cəlb edilməsi ilə keçirilən təlimin planına əsasən, Xəzər dənizinin Azərbaycana məxsus sektorunda enerji infrastrukturlarının mühafizəsi və



müdafiəsi üzrə müxtəlif fəaliyyətlər icra olunub. Həmçinin gündüz və gecə şəraitində, sahildə və adalarda şərti düşmənin müvəqqəti baza məntəqələrinin aşkar edilməsi və xüsusi əməliyyatlarla terror qruplaşmalarının məhv edilməsi üzrə taktiki elementlər uğurla yerinə yetirilib.

Daha sonra Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimin növbəti epizodlarını izlədi. Təlimin gedişini izləyən müdafiə naziri çalışmalar başa çatdıqdan sonra şəxsi heyətin qarşısında çıxış edərək onların peşəkarlığını, qarşıya qoyulmuş tapşırıqların uğurla icrasını müsbət qiymətləndirdi və təlim iştirakçılarına gələcək xidmətlərində müvəffəqiyyətlər arzuladı. Təlim rəhbərliyinə müvafiq tapşırıqlar verən müdafiə naziri şəxsi heyətin bundan sonra da yüksək döyüş hazırlığına malik olacağına əminliyini bildirdi, təlimin növbəti fəaliyyətlərinin yüksək səviyyədə icrası ilə bağlı göstərişlər verdi.

Təlimin növbəti aktiv fazasında HDQ-nin Dəniz xüsusi təyinatlıları aşkar edilmiş sualtı təxribat qruplarının məhv edilməsi tapşırıqlarını icra etdilər. Taktiki təlimin keçirildiyi sahilyanı əraziyə baxış keçirilməsi və aşkar olunmuş silahlı qrupların zərərsizləşdirilməsi çalışmaları yerinə yetirildi. Təlimə cəlb olunmuş hərbi gəmilər lövbərdən çıxaraq neft-qaz boru kəmərləri rayonlarında patrul aparma və monitorinq fəaliyyətlərinin icrasını da həyata keçirdi. Daha sonra silahlı qruplar tərəfindən zəbt olunmuş gəminin azad olunması çalışmaları işlənildi. Növbəti fəaliyyətlər qəzaya uğramış gəmiyə köməklik göstərilməsi, yanğının söndürülməsi, axtarış-xilasetmə əməliyyatları və zərərçəkənlərin evakuasiya edilməsi fəaliyyətləri oldu ki, təlim iştirakçıları bu tapşırıqların da öhdəsindən peşəkarlıqla gəlməyi bacardılar.

Mərhələləri müvəffəqiyyətlə tamamlayan HDQ gəmi və katerləri təntənəli keçidlə Xəzər dənizində yerləşən hərbi bazalarına qayıtdılar.

### Təlimin məqsədi və əhəmiyyəti

Döyüş atışlı taktiki təlimin keçirilməsində əsas məqsədlər bunlardır: Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub ərazi sularında təhdid zamanı şərti düşmənin məhv edilməsi, müxtəlif şəraitlərdə gəmilərin tək-tək və taktiki qruplar üzrə tapşırıqların yerinə yetirilməsi zamanı birgə fəaliyyətlərin düzgün aparılması, döyüş fəaliyyətlərinin düzgün təşkili və qüvvələrin döyüşdə idarə olunması üzrə komandir və qərargah bacarıqlarının təkmilləşdirilməsi. Nəzərə alsaq ki, hərbi dəniz təlimlərinin keçirilməsinin ən böyük əhəmiyyəti şəxsi heyətin peşəkarlığını artırmaq, gəmilərin idarə olunması və qarşılıqlı fəaliyyət imkanlarını yoxlamaq, eləcə də potensial təhdidlərə qarşı çevik reaksiya vermə bacarığını inkişaf etdirməkdirsə, Azərbaycan HDQ-nin təlimə cəlb olunmuş heyəti bu məsuliyyətin əhəmiyyətini dərindən dərk edir. Təlimlər zamanı real döyüş şəraitinə yaxın ssenarilər hazırlanmış və bu heyətin psixoloji və fiziki hazırlığını yüksəltməyə kömək etmişdir. Belə təlimlər, eyni zamanda, yeni texnologiyaların tətbiqinin sınaqdan keçirilməsi üçün də mühüm imkan yaradır.

### Beynəlxalq əməkdaşlıq və regional təhlükəsizlik

Hərbi dəniz təlimləri beynəlxalq formatda da keçirilir. Xəzər dənizində Azərbaycan cənub qonşumuz olan İranla və dəniz qonşumuz Qazaxıstanla birgə müxtəlif təlimlərdə iştirak edir və öz peşəkarlığını nümayiş etdirir. Müxtəlif ölkələrin iştirakı ilə həyata keçirilən birgə təlimlər regional təhlükəsizlik üçün önəmli rol oynayır. Bu cür əməkdaşlıqlar nəticəsində keçirilən təlimlər və təşkil olunan görüşlər ölkələr arasında həm qarşılıqlı təcrübə mübadiləsini, həm də birgə əməliyyatlar zamanı əlaqələndirmə səviyyəsini yüksəldir. Bu il Hərbi Dəniz Qüvvələrimizin şəxsi heyəti Qazaxıstanın Aktau şəhərində keçirilən "Xəzər küləyi-2025" birgə hərbi təlimlərində iştirak edib, dəniz iqtisadiyyatı üzrə fəaliyyət obyektlərinin qorunmasına, gəmiçiliyin təhlükəsizliyinin artırılmasına yönəldilmiş təlimdə üzərinə düşən tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirib. Həmçinin dünyanın aparıcı hərbi donanmasına malik olan qardaş Türkiyə, Pakistan və İtaliya kimi ölkələr ilə qurulan əməkdaşlıqlarda öz növbəsində yüksələn xətlə davam etdirilir.



### HDQ-mizin cari vəziyyəti və perspektiv istiqaməti

Keçirilən təlimlərdə nümayiş olunan peşəkarlığın nəticələri bir daha göstərir ki, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin hazırlıq səviyyəsi yüksəkdir və şəxsi heyət qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirmək qabiliyyətindədir. Bu, dəniz sərhədlərimizin etibarlı qorunduğunu göstərir. Sonuncu təlim bir daha nümayiş etdirdi ki, Azərbaycan HDQ-nin tərkibində olan hərbi gəmi və katerlərin modern tələblər üzərində fəaliyyət göstərməsi üçün ciddi işlər görülür. Təhlükəsizlik üçün naviqasiya cihazlarının, radiotexniki, müşahidə və kəşfiyyat vasitələrinin, rabitə avadanlıqlarının yenilənməsi istiqamətində artıq zəruri işlər aparılıb və bu iş bu gün də uğurla davam etdirilir. Gələcəkdə bu cür təlimlərin və əməkdaşlıqların daha da genişləndirilməsi, texnologiyaların təkmilləşdirilməsi və müasir döyüş konsepsiyalarının tətbiqi ilə donanmamızın imkanlarının daha da artırılması yuxarı komandanlıq tərəfindən aidiyyəti şəxslər qarşısında qoyulan vacib tapşırıqlardandır.



### Nəticə

İştirak etdiyimiz döyüş atışlı taktiki təlim göstərdi ki, Hərbi Dəniz Qüvvələrimizdə keçirilən təlimlər yalnız hərbi məqsədlərə xidmət etmir, həm də dövlətin güc və iradəsinin simvoludur. Təlimlər həm daxili sabitliyə töhfə verir, həm də xarici təhlükələrə qarşı ölkənin hazır olduğunu göstərir. Müasir çağırışlar fonunda belə tədbirlərin intensivliyi və miqyası daha da artırılmalı, dəniz qüvvələri daim yüksək hazırlıq vəziyyətində saxlanmalıdır. Bu, yalnız hərbi güc deyil, həm də strateji ağıllı planlaşdırmanın göstəricisidir. Əminik ki, Azərbaycan HDQ bu günə qədər Xəzər dənizinin sülh carçısı olduğu kimi, bundan sonra da öz müqəddəs missiyasını layiqincə yerinə yetirəcək.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

Disput

# Vətəni Vətən kimi sevənlərin əhatəsində

*Mahiyyəti torpaq olan Vətən kəlməsinin yaşı dövlət kəlməsinin yaşından böyükdü. Biri sərhədlərlə əhatələnir - dövlət olur, birinin sərhədlərini ruh müəyyənləşdirir - bu, Vətəndi. Asudə vaxtda "N" hərbi hissəsində əsgərlərlə Vətəndən danışacağıq, Vətənə sevgidən danışacağıq, Vətəni sevə-sevə qoruyanlardan, qoruya-qoruya sevənlərdən danışacağıq. Bu söhbətləşməni əsgərlərə rəsmi olmayan vətənpərvərlik dərsi biləcəyik.*



"Vətən gözdü, biz kirpik" deyən bu əsgərlər də müqəddəslik işığında müqəddəs borclarından söz açacaqlar. Bir az əvvəl eşitdiyim bir fikir düşüncələrimin haləsinə dönüb: Vətəni hamı sevir, oğul odur ki, Vətəni Vətən kimi sevsin! Mənə elə gəlir ki, Vətəni Vətən kimi sevənlərin əhatəsindəyik. Əsgərlər böyük qürurla, böyük sevgilərlə, əsgəri qətiyyətlə "Bura Vətəndi!" deyəcəklər...

Kapitan Nicat Qaçayev disputa giriş kimi bildirir ki, Azərbaycan əsgərinin Hərbi Anda sədaqəti dövlətə, dövlətçiliyə sədaqətidi. Bu sədaqət mahiyyəti baxımından Vətənə sevgi deməkdi. Bu sevgi Vətənin ağır günlərində daha da kükrəyir, nəhrə çevrilir. Ağır günlər müharibədi. Müharibədə şəhidlikdən keçən döyüşlər qələbə işığına dönür, əsgər bu işığı bayraqlaşdırıb Zəfərə yetirir.

Kapitan Nicat Qaçayevin fikirləri əsgərlərin düşüncələrini tərpədir, onların baxışlarında qürur görünür. Bu qürur İkinci Qarabağ müharibəsinin, döyüşlərin, qəhrəmanlıqların qürurudu. Əsgər Elnur Haqverdiyev Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun qəhrəmanlığını xatırladır:

- Onun qəhrəmanlığı qeyri-adiliyinə görə, necə yerinə yetirilməsinə görə, düşmənə vurduğu mənəvi zərbənin yaratdığı vahiməyə görə illərlə xatırlanacaq. Nə vaxtsa oxumuşdum: Mübariz İbrahimovun qəhrəmanlığı mübarizləşmə təyini yaratdı.

Əsgər Elvin Şirəliyev gözucu göy üzünə baxıb əsgər yoldaşının fikrini səmimiyyətlə tamamlayır:

- Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun qəhrəmanlığı Çingizləşmə təyini yaratdı. Çingiz Qurbanovun xidmət etdiyi postda xidmət edən əsgərlərdən birinin dedikləri yadıma düşür: Hər dəfə döyüş növbətçiliyinə gedəndə bizi Çingizin baxışları uğurlayır. Bizə elə gəlir ki, döyüş növbətçiliyinə ruhu həmişə döyüş növbətçiliyində olacaq Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun uğurlaması ilə gedirik.

- Bu duyğular Çingizin də, sizin də Vətənə sevginizə görədi. Siz qəhrəmanın özünü də yaşadırsınız, qəhrəmanlığını da, Vətənə sevgisini də, - kapitan Nicat Qaçayev əsgərlərin mükaliməsləşməsini zəruri bir münasibətlə gözəl ümumiləşdirir.

- Bu qəhrəmanlıqlar İkinci Qarabağ müharibəsinə qədər olmuşdu. Hər ikisi Azərbaycan əsgərinin döyüş əzmini, qələbə ruhunu ifadə etmişdi. Düşmən Mübarizləşən, Çingizləşən Azərbaycan əsgərinin döyüş hazırlığından çəkinirdi, - əsgər Nihad Süleymanovun baxışları uzaqlara yönəlir. O uzaqlıqlar Kəlbəcərdi, Laçındı, Xankəndidi, Şuşadı, ... Bir daha əmin oluruq ki, Vətən sevgisinin, Vətənə sevginin hüdudları olmur. İkinci Qarabağ müharibəsi başlayanda əsgərlərimiz düşmənin yaratdığı, təkmilləşdirdiyi sədləri darmadağın elədi, döyüşə-döyüşə irəlilədi, irəliləyə-irəliləyə döyüşdü, Vətənə sevginin qüdrəti kimi ilkin mövqe qələbələri qazandı.

Bu əsgərlərə ehtiramıma görə, İkinci Qarabağ müharibəsində qəhrəmanlıqla döyüşmüş naməlum qəhrəmanların ruhuna ehtiramıma görə söhbətə müdaxilə etməyi qərara alıram. Mənə elə gəlir ki, deyəcəklərim əsgərlərin dediklərinin məntiqi davamı olacaq:

- Üç dostuydular. Hərbi xidmətə eyni gündə gəlmişdilər. Üçü də ali təhsilliydi. İlham ədəbiyyat müəllimiydi, Rəhman rejissoruydu, Mikayıl rəssamıydı. İlhama Şair deyirdilər, Rəhmana Bəstəkar, Mikayıla Rəssam. Müharibə başladı. Onlar da döyüşürdülər. Döyüşə-döyüşə bir-birini qoruyurdular, bir-birini qoruya-qoruya döyüşürdülər, döyüşə-döyüşə Qələbəyə yaxınlaşırdılar...

Füzuliyə hücum olacaqdı. Əmr gözləyirdilər. Yanaşı döyüşəcəkdilər. Zaman dayanmışdı elə bil. Dayanmış zaman içində Şairə elə gəlirdi ki, barmağıyla torpağa misralar yazır. Rəssam xəyalında rənglərlə Qələbə anının görüntülərini çəkir. Bəstəkar qənşərindəki kiçicik daşları royal dilləri kimi dilləndirir. Çağıran olmasa, nələr yazılardı, nələr çəkilərdi, nələr eşidilərdi?! Bir-birinə calaqlı üç güllə səsi eşidildi - döyüş başlamışdı. Şair ortada döyüşürdü. Bəstəkar Şairin sağında, Rəssam Şairin solunda. Güllələr daşlardan qamqalaq qopardırdı. Nə həndəvərlərini yaralayan güllələrə məhəl qoyurdular, nə də yaxınlığa düşən güllələrə. "Şair!", - Rəssamın səsiydi, səsindən hiss elədi ki, yaralanıb, köməyə səsləyir. Ona sarı getmək istəyirdi ki, Bəstəkarın səsini eşitdi: "Şair!". O da yaralanmışdı. O da köməyə çağırırdı Şairi... Anların içində bir addım sola atdı, bir addım sağa. Sağa dönəndə solu yanırdı, sola dönəndə sağı. İki ömür arasında bir ömrü bölməyə gücü çatacaqdımı?.. Azca dikəldi. Üzü üstə torpağa döşəndi. Güllə ürəyindən dəyibmiş... Bu anlarda onların sağında-solunda güllələr didişirdi. Həmin döyüşdə Şair də şəhid oldu, Bəstəkar da, Rəssam da...

İkinci Qarabağ müharibəsində üç döyüşçünün döyüşü, sonda şəhidliyi əsgərləri duyğulandırır. Kapitan Nicat Qaçayev bu duyğulanmanı da Vətənə sevgiyə yozur, bu yozumun özü də sevginin ifadəsidi. Bir nəfəs dərimiycə çəkən sükutu əsgər Qüdrət Babayevin xatırladığı misralar çilikləyir, bayaqdan bəri könüllərdə dolaşan duyğuların göyqurşağına dönür:

***Sən varsan, biz varıq, Azərbaycanım! -***
***Döyüşçü ruhunun dönməz səsidi.***
***Əsgər dünyasının gur işığısan,***
***Hərə bu işığın bir zərrəsidi!..***

- Əsgər yoldaşınızın dediyi misraları Hərbi Andın mahiyyətinin davamı bilin, - kapitan Nicat Qaçayev qürurla əsgər Qüdrət Babayevə baxır. Sevgi var bu baxışlarda. Vətəni bunca sevənlərə sevgi baxışları orduya sevgi deməkdi.

- Orduya sevgi dövlətə, dövlətçiliyə sevgidi. Vətəni sevənlərin ürəyi vətənləşir. Ona görə də bütün məmləkət boyunca hamı deyir ki, Vətən əsgər üreyindən başlayır, - əsgərlərin baxışlarından səmavi bir qüdrət dikəlir. Döyüş hazırlığına söykənən bu qüdrətin də işığında Vətənə sevginin işığı var. Bu qüdrət işıqda duyulan işıqdı. Sərhədlərimiz daxilində hər qarış torpaqdan da ruhən görünə biləcək işıqdı.

- Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi, ərazi bütövlüyümüz tam təmin olundu. İkinci Qarabağ müharibəsinin iştirakçıları da, şəhidlərin ruhu da, tarixi Zəfəri qazananların davamçıları da qürurla, böyük sevgilərlə Azərbaycanımızın sərhədi daxilində bütün ərazilərə xitabən deyirlər ki, bura Vətəndi. Və yadıma bir mahnımız düşür: "Bura Vətəndi!". Bu gözəl şeiri Dilsuz yazıb, Cavanşir Quliyevin bu lacivərd bəstəsi neçə illər əvvəl Akif İslamzadənin ruhundan süzülüb, dinləyənlərin ruhunun şərqisi olub. Vətən adına yazılan, Vətən adına oxunan, Vətən adına dinlənilən "Bura Vətəndi!" böyük bir sevginin ünvanını göstərir. O ünvan ululuğun, müqəddəsliyin ünvanıdı. Mahiyyət baxımından sərhədsiz ruhun dolaşdığı ərazilərin nəhayətsizliyinin göstəricisidi. Akademik Xudu Məmmədov deyərdi: "Uşaqlara Vətəni sevməyi öyrətmək lazım deyil; onlara Vətəni tanıdın, özləri sevəcəklər". Bu oxuma Vətəni tanıyanlara Vətəni daha ülviyyətlə tanıtdı, Vətəni daha dərini sevgilərlə sevdirdi, - deyirəm...

Əsgər Yusif Yusifov maraqlı bir məqamdan söz açır:

- Biz də Vətən kəlməsinin aşıladığı məzmuna yaxşı bələd idik. Çağırışçı yaşına bu bələdliklə çatmışdıq, hərbi xidmətə bu bələdliklə başlamışdıq. Hərbi xidmət bizə Vətəni daha böyük sevgilərlə sevdirdi. Hər birimiz xidmət yerimizi Vətənin ürəyi bilirik. Başqa ərazilərdə xidmət edənlər də bizim kimi düşünürlər. Ona görə də hər bir əsgər dediyiniz oxumanı ürəyinin səsi bilir.

Əsgər Nihad Süleymanov oxumanın sözlərini xatırladır:

***Bura Vətəndi, gülü bitəndi, əlim çatandı,***
***Ünüm yetəndi - bura Vətəndi!***

Mənə elə gəlir ki, indicə oxumanın cazibəsinə düşəcəyik, "Bura Vətəndi"nin doğmalığı hamımızı bu sevginin pərvanəsinə döndərəcək...

Əsgərlər "Bura Vətəndi!" deyirlər, Vətəndən danışırlar, İkinci Qarabağ müharibəsinin döyüşlərindən danışırlar, qəhrəmanlardan danışırlar. Hər kəlmədə Vətən var, Vətənə sevgi var. İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfərdən sonra işğaldan azad edilmiş ərazilərdə xidmət edən əsgərlərimizin əhatəsində eşitdiyim bir sevgini də xatırlayıram: Bu sevginin işığına milyonlar şərik...

"Bura Vətəndi", - deyən əsgərlər həm də deyirlər ki, bu sevginin işığına milyonlar şərikdi, Vətən!..

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

---

Əsgərin tribunası

# Vətən bizim nəfəsimiz, ruhumuzdur

*Hər səhər Günəşin ilk şüaları hərbi hissəyə düşəndə, mən də bir daha anlayıram ki, buradakı hər nəfəsim Vətən üçündür. Bura mənim sadəcə hərbi hissəm deyil, həm də evim, bayrağımın dalğalandığı müqəddəs məkandır.*

Qalib ordunun əsgəri kimi, nümunəvi xidmətimlə qürur duyuram. Biz Vətənə and içmişik - gözümüzü qırpmadan onu qorumağa, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canımızı verməyə hər an hazır olmaqla yanaşı, həm də döyüş hazırlığımızı artırırıq. Bu torpağın hər qarışı şəhid qanı ilə yoğrulub, hər daşı xalqımızın tarixini yaşadır. Mən bu tarixi qoruyan keşikçiyəm.

Əsgər həyatı şərəflidir. Gecənin qaranlığında postda hər bir əsgərə uzaqlardan görünən kəndimizin işıqları güc verir. Bilirik ki, arxamızda analarımızın duaları, övladlarımızın gələcəyi, Vətənimizin taleyi dayanır.

Üzümüzə soyuq külək çırpılanda, Günəşin istisində yorulduğumuzu hiss etsək belə, bir baxış kifayətdir - üçrəngli bayrağa baxış. O, dalğalanırsa, biz güclüyük.

Bir əsgər olaraq mənim üçün bu gün fəxrlə daşıdığım hərbi forma şərəf rəmzidir. Bu forma mənə məsuliyyət verir, çiyinlərimə Vətənin yükünü qoyur. Burada hər günümüz, hər anımız tarix yazır. Bəlkə də biz bunu indi hiss etmirik, amma bəzən qəhrəmanlıq səhifələri elə



xidmətdə yazılır.

Hərbi xidmətdə qazandıqlarım həyatımın ən böyük sərvəti olacaq. Burada mən yalnız silahı düzgün işlətməyi deyil, həm də öz hisslərimə nəzarət etməyi öyrəndim. Səbir, intizam, iradə - bunlar hərbi xidmətin mənə verdiyi, mülki həyatda da istifadə edəcəyim ən gərəkli xarakter çalarlarıdır. Çətin şəraitdə qərar vermə bacarığı, təhlükə anında soyuqqanlı qalmaq, əsgər yoldaşına arxa durmaq - bunları kitabdan öyrənmək mümkün deyil, yalnız hərbi xidmətdə, təlimlərdə qazanmaq olar.

Ən böyük qürurum əsgər qardaşlığı, dostluğudur. Burada tanış olduğum insanlar mənim üçün ailə kimidir. Rəmzi olaraq bir tikə çörəyi bölüşmək, bir udumluq suyu yarı bölmək, gecənin soyuğunda bir-birinə sığınacaq olmaq, kürək-kürəyə vermək - bunlar bizi biri-birimizə ömürlük bağlayır.

Ən böyük arzum odur ki, daim sülh olsun, analarımız oğullarını hərbi xidmətə yola salanda qürurla, rahat könüllə yola salsınlar. Hər an Vətənin keşiyində dayanan oğulların sayəsində körpələrimiz sabaha ümidlə oyansın.

Əgər bu torpaq uğrunda canımızı vermək lazım gələrsə, tərəddüd etmərik. Çünki bu torpaq bizim nəfəsimiz, ruhumuzdur.

**Əsgər**
**Rauf ƏLİYEV**
**"N" hərbi hissəsi**

# "Bilsin ana torpaq, eşitsin Vətən, Müsəlləh əsgərəm mən də bu gündən!"

*İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfər ordu quruculuğunun yeni mərhələsinin başlanğıcı oldu. Bu müharibəyə qədər Azərbaycanda hərbi xidmətin başlıca mahiyyəti torpaqlarımızın işğaldan azad edilməsi ilə şərtlənirdisə, 2023-cü ilin 19-20 sentyabr antiterror əməliyyatından sonra ərazi bütövlüyümüzün müdafiəsi ilə şərtlənir. Qalib Azərbaycan əsgərinin mənəvi davamçıları olan əsgərlərimiz bu amalla Hərbi Anda, dövlətə, dövlətçiliyə böyük sədaqətlə xidmət edirlər. Hərbi andiçmə mərasimlərində də çıxış edən zabitlərin və valideynlərin gənc əsgərlərə tövsiyələrinin, tapşırıqlarının mahiyyəti tarixi Zəfərin müəyyənləşdirdiyi ordu quruculuğunun tələbləri ilə səsləşir: Ərazi bütövlüyü tam bərpa olunmuş Azərbaycana siz də böyük sədaqətlə xidmət edin!.. Çıxış edən gənc əsgərlər əsgər yoldaşları adından bildirdilər ki, bu tövsiyələri, tələbləri Vətənin tövsiyələri, tələbləri bilirlər, etimadı nümunəvi xidmətləri ilə doğruldacaqlar.*

*Hərbi andiçmə hərbi hissənin tarixində də, gənc əsgərlərin xidmətində də, ordu quruculuğunda da əlamətdar hadisə kimi tarixləşir. Bu tarix xidmətə başlayan əsgərlərin mənəvi-psixoloji hazırlığında da əhəmiyyətli olur...*

*Ordumuzda Hərbi andiçmə mərasimləri böyük qürurla, sevinclə, coşqu ilə keçdi...*

**"Azərbaycan Ordusu"**

**Əsgər İlkin Bilalov:**

- Müddətli hərbi xidmətini başa vurub tərxis olunmuş dost-tanışlardan hərbi xidmət haqqında çox eşitmişdik. Onların hamısı əsgərlikdə keçən günlərini maraqla xatırlayır, əsgər



yoldaşlarından, komandirlərindən ağızdolusu danışırdılar. Hərbi xidmətin onlara aşıladığı müsbət vərdişləri xüsusi qeyd edir, ordu sıralarında vətənpərvərlik, dözümlülük, cəsurluq, intizam və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətlərin inkişaf etdirildiyini vurğulayırdılar. Həmçinin xidmət dövründə qazanılan əbədi dostluq haqqında çox eşitmişdim. Hərbi xidmət haqqında ilkin fikirlərim və təəssüratlarım məhz bu söhbətlərlə formalaşmışdı. Hərbi həyat ilə ilk tanışlığımız orta məktəbdə tədris olunan "Gənclərin çağırışaqədərki hazırlığı" fənni ilə başlayıb. Bu fənn üzrə keçirilən dərslərdə Azərbaycan Ordusu haqqında ilkin məlumatlara yiyələnir, ordu həyatı ilə tanış olur, hərbi xidmətə fiziki və mənəvi-psixoloji cəhətdən hazırlanırdıq. Hər birimiz orduda xidmətin müqəddəs borc və şərəfli vəzifə olduğunu dərk edirdik. Hərbi xidmətə çağırılanda mən də sevindim. Qalib ordumuzun sıralarında olacağım üçün qürurlandım. Valideynlərimə söz verdim ki, nümunəvi əsgər kimi komandirlərimin əmr və tapşırıqlarını vaxtında icra edəcəm, bacarıqlı əsgər kimi formalaşacam, xidmətimi layiqincə başa vuracağam.

Hərbi hissəyə gələn gündən sözlərimə sadiq qalıram. Artıq burada yaxşı dostlar qazanmışam. Əminəm ki, burada təməli qoyulan dostluqlar əbədi olacaq. Çünki hər birimizi müqəddəs amallar birləşdirir. Bu gün əsgər yoldaşlarımla birlikdə Hərbi Andı qəbul etdik. Bu təntənəli günü heç birimiz unutmayacağıq. Bizim qədər valideynlərimiz də, yaxınlarımız da sevindilər. Biz söz veririk ki, keçirilən məşğələlərdə hərbi biliklərə və silahlardan istifadə qaydalarına yaxşı yiyələnmək üçün səylə çalışacağıq. Gənc əsgər hazırlığını müvəffəqiyyətlə başa vurub hazırlıqlı əsgərlər kimi Vətənimizin müdafiəsində mətin dayanacağıq. İçdiyimiz anda sadiq qalacaq, rəşadətli ordumuzun adına layiqli əsgərlər olacağıq. Bu yolda, bizim bacarıqlı əsgərlər kimi formalaşmağımızda zəhməti keçən komandir heyətinin hər birinə təşəkkürümüzü bildiririk. Əmin olsunlar ki, həmişə nizamnamələrin tələblərini düzgün yerinə yetirərək, nümunəvi xidmət edəcəyik.

**Əsgər Taleh Hüseynov:**

- Yeniyetməliyim İkinci Qarabağ müharibəsinə təsadüf etdi. Məktəbli olsam da, müharibənin nə olduğunu yaxşı bilirdim. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olan həmvətənlərimizin dəfn mərasimlərində də iştirak edirdim. O günlərdə təəssüflənirdim ki, məktəbliyəm, döyüşlərə qatıla bilmirəm. Onda valideynlərim deyirdilər ki, zamanı gələndə sən də əsgər olacaqsan, Vətənə övladlıq borcunu yerinə yetirəcəksən. Bu gün Hərbi And içərək ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş qalib ordunun sıralarına qatıldım. Söz verirəm ki, savadlı və təcrübəli komandirlərimizdən hərbi bilikləri mükəmməl öyrənəcəm, təlimlərdə məsuliyyətlə



iştirak edərək hərbin sirlərinə dərindən yiyələnəcəyəm. Torpaqlarımızı işğaldan azad etmiş qəhrəman hərbçilərimizin döyüş yolunu davam etdirəcək, verilən tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışacam. Bir neçə həftədir ki, Vətən qarşısındakı övladlıq borcumu yerinə yetiri-



mək üçün ordu sıralarına çağırılmışam. Biz xidmətdə ilk addımlarımızı atırıq. Hər işdə ilk addım həmişə çətin olur, zaman keçdikcə bu çətinlik ötüb arxada qalır. Komandirlərimizin köməkliyi ilə hərbi bilik və vərdişləri öyrənə-öyrənə bu mərhələni keçirik. Onların dərsləri həvəslə öyrətməsi bizə ruh yüksəkliyi aşılayır və hərbi xidmətə marağımızı daha da artırır. Qürur hissləri keçiririk ki, qalib ordunun sıralarında xidmət edirik. Bizim üçün bu böyük xoşbəxtlikdir ki, İkinci Qarabağ müharibəsində tarixi qələbə qazanan hərbçilərimizlə bir sırada xidmət edəcəyik. Dərslərdə təcrübəli komandirlərimiz bizə təhkim olunan silahımızın taktiki-texniki xüsusiyyətlərini öyrədirlər. Silahımın təyinatını, atış qaydalarını və bütün xüsusiyyətlərini böyük həvəslə mənimsəyirəm. Mənimsədikcə anlayıram ki, əsgərin döyüşdə ən birinci dostu silahıdır. Zaman keçdikcə hərbi vərdişləri daha dərindən öyrənəcək, təlim və məşğələlərdə müsbət nəticələr göstərəcəyik. Xidmətim boyu çalışacam ki, xidməti vəzifələrimin öhdəsindən bacarıqla gəlim, göstərilən etimadı hər addımda doğruldum.

**Əsgər İlkin Əliyev:**

- Xidmətə başladığım ilk gündən Azərbaycan Ordusuna göstərilən diqqət və qayğının əyani şahidi oldum. Hərbi hissədə bütün təminatlarımız yüksək səviyyədədir. Təmiz və rahat yataqxanamız, dadlı yeməklərin bişirildiyi yeməkxanamız, gözoxşayan istirahət otaqlarımız var. Bir sözlə, uğurlu xidmətimiz üçün bütün təminat növləri ilə tam təmin olunmuşuq. Bu gün Hərbi Andı qəbul edərək tam məsuliyyətlə Vətənimizə xidmət etməyə hazır olduğumuzu bildirdik. Xalqımızı əmin edirik ki, biz gənclər Vətən müharibəsində şücaət göstərmiş oğullarımızın şanlı döyüş yolunu şərəflə davam etdirəcək, Vətənimizin müdafiəsində mətin dayanacağıq.

Yaxın dostlarım ordu sıraları-



na hərbi xidmətə yollananda onlara həsədlə baxırdım. Belə bir günün mənim də qapımı döyəcəyini böyük intizarla gözləyirdim. Gözləyirdim ki, məni də yaxınlarım və doğmalarım təntənə ilə ordu sıralarına yola salsınlar. Yay günlərinin birində arzuma qovuşdum, istəyimə çatdım. Ordu sıralarına çağırıldım. Əynimə hərbi forma geyinib, ürəkdən,





qəlbdən bağlandığım Vətənimə əsgər oldum. Bu müddət mənim üçün çox səmərəli keçib. Bacarıqlı və səriştəli zabitlər bizə müxtəlif məşğələlər keçir, hərbi sirləri, atıcı silahların taktiki-texniki xüsusiyyətlərini öyrədirlər. Bizə təhkim olunan silahlardan atəş açmağı da bacarırıq. Təntənəli surətdə Hərbi Andı qəbul etdik. Bu günü heç vaxt yaddan çıxarmayacam. Çünki bu gün mən də çox xoşbəxt anlar yaşadım. Elə anlar ki, bir aya, bir ilə, bir ömrə dəyər. Xidmətimin sonunadək içdiyim anda sadiq qalacam, Vətənimi göz bəbəyim kimi qoruyacam. Vətənə əsgər olmaq, onun keşiyində dayanmaq hamımızın borcudur. Bu borcu şərəf və ləyaqətlə yerinə yetirəcəm. Komandirlərimizin verdiyi bütün tapşırıqları cəld və dəqiq yerinə yetirərək nümunəvi əsgərlərdən olacam. Müddətli hərbi xidmətimi müvəffəqiyyətlə, şərəflə başa vuraraq valideynlərimin yanına alnıaçıq, başıuca qayıdacam.

**Əsgər Cəbrayıl Cəbrayılov:**

- Bu gün həyatımın ən yaddaqalan, ən qürurlu günlərindən biridir. Hərbi Andı qəbul edərək rəşadətli və qalib Azərbaycan Ordusunun sıralarına qoşuldum. Bu gün hər birimiz üçün yeni həyatın başlanğıcıdır. Andı qəbul edərkən gözlərimdə qürur, qəlbimdə həyəcan vardı. Qarşımda üçrəngli bayrağımız ucalırdı. Mən isə həmin bayrağın hər zaman uca qalması, xalqımızın sülh və təhlükəsizlik içində yaşaması üçün xidmət etməyə söz verdim. Bu and mənim üçün ömürlük məsuliyyətdir. Xalqımın, torpağımın və dövlətimin keşiyində durmaq müqəddəsdir və məsuliyyətlidir. Mənə qədər neçə-neçə igid bu sıralarda olaraq, döyüş meydanlarında şücaət göstəriblər. Onların arasında şəhidlərimiz və döyüşlərdə sağlamlığını itirənlər də olub. Bu gün onların ruhları qarşısında baş əyərək söz verdik ki, Vətənimizi şərəflə qoruyacağıq. Vətən elə bir ülvi varlıqdır ki, anadan olandan ömrünün sonuna qədər sənə qucaq açır. Torpağının nemətləri ilə qidalanırsan, havasından, suyundan bəhrələnirsən. Vətən hər birimiz üçün anadır. Əsgəri xidmət də ana Vətənimizə həm övladlıq, həm də mənəvi borcdur. Vətəni qorumaq həm də müqəddəs və şərəfli vəzifədir. Hamı kimi, mən də Hərbi Anda sadiq qalacağıma, Vətənimin keşiyində qətiyyətlə dayanacağıma, nümunəvi xidmətimlə valideynlərimin, komandirlərimin etimadını doğruldacağıma söz verirəm.

(Ardı 5-ci səhifədə)

# "Bilsin ana torpaq, eşitsin Vətən, Müsəlləh əsgərəm mən də bu gündən!"

(Əvvəli 4-cü səhifədə)

**Əsgər Uğur Quliyev:**

- Hər birimiz uşaqlıqdan əsgər olmaq haqqında düşünmüşük, hərbçilərimizə xüsusi rəğbətlə böyümüşük. Evdə valideynlərimizin, məktəbdə müəllimlərimizin ordumuz haqqında söhbətləri, hərbçilərimizdən fəxrlə danışmaları, eləcə də kitablardan hərb tariximiz haqqında oxuduqlarımız düşüncələrimizi ordumuzla sıx bağlayırdı. Biz də özümüzü hərbi xidmətdə olan əsgərlərin sırasında hiss edirdik. İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfərdən biz də qürurlanmışdıq. İndi daha böyük duyğularla qürurlanırıq ki, biz də əsgərik, qalib ordunun əsgəri.

Həyatımın ən əlamətdar günlərindən birini yaşadım. Azərbaycan Ordusunun sıralarına qoşularaq Hərbi Andı qəbul etdim. Bu gün müddətli hərbi xidmətimizin başlanğıcındayıq. Bir əlim əsgər yoldaşımın çiynində, bir əlim silahda üçrəngli bayrağımız qarşısında andı içmək, qürurla səsləndirdiyim sözlər mənim üçün unudulmazdır. Uşaqlıqdan böyüyən arzularımla, Vətənə sevgimlə, dövlətimə bağlılığımla and içdim. Bu günə qədər minlərlə igid oğul bu andı qəbul edib, Vətən uğrunda həyatlarını fəda edənlər də olub. Onların əziz xatirələri hər zaman bizimlədir. Şəhidlərimizin vətənpərvərliyi, şücaəti hər birimizə nümunədir. Söz verdik ki, onların qanı ilə suvarılan torpaqlarımızı daim qoruyacağıq. Döyüşlərdə şəhid olanların, yaralananların mərdliyi, igidliyi biz gənc əsgərlər üçün nümunədir. Mən də çalışacam ki, onların yolunu davam etdirim, ordumuzun adına layiqli əsgər olum. Əsgər olmaq həm də Vətənə bağlılıq, dövlətə sədaqət, bayrağa hörmət deməkdir. Hər günüm, hər addımım bu müqəddəs dəyərlərin keşiyində dayanmaqla ölçüləcək. Ən böyük arzum xidmətimi layiqincə başa vurmaq, andıma sadiq qalmaq və dövlətimə fayda-lı olmaqdır.

**Əsgər Nurlan İsgəndərov:**

- İnsan harada yaşayırsa-yaşasın, onun qəlbi hər zaman



Vətəni ilə döyünür, Vətən üçün darıxır. Dünyada Azərbaycan adlı məmləkətdən gözəl bir diyar yoxdu. Hər kəsə doğulub böyüdüyü, ilk addımlarını atdığı torpağı, Vətəni şirindir. Bəli, belə deyib atalarımız: "Gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı". Vətən anadır. Azərbaycan da bizim doğma Vətənimizdir, yeni, anamızdır. Onu qorumaq, müdafiəsində ayıq-sayıq dayanmaq hər birimizin övladlıq borcudur. Bu gün Hərbi Andı qəbul edib sıralarına daxil olduğumuz Azərbaycan Ordusu regionun ən güclü ordusudur. Dünyanın ən müasir silah və texnikaları ilə təchiz edilmiş rəşadətli ordumuzda xidmət etmək hər bir gənci qürurlandırır. Düşmən üzərində qələbə qazanmaq ən böyük haqq işimiz idi. Bu qələbəyə addım-addım yaxınlaşdıq. Böyük Qələbəyə Ali Baş Komandanın sərkərdəlik qüdrətinin və ordumuzun sayəsində qovuşduq. Mən də Vətənimə övladlıq borcumu ödəməyə gəlmişəm. Hərbi formanı əynimə geyindiyim ilk gün həyatımın ən yaddaqalan, unudulmaz günlərindən biridir. Mən də qürurluyam ki, qalib ordunun əsgəriyəm. Xidmətə başladığım gündən hərbi vərdişlərə yiyələnməyə can atıram. Vəzifə borclarıma məsuliyyətlə yanaşıram. Gənc əsgər hazırlığında keçirilən təlim-məşğələlərdə ixtisasımın incəliklərini həvəslə mənimsəyərək, döyüş hazırlığımı artıracam. Məsuliyyətli, Hərbi Anda, dövlətə, dövlətçiliyə sədaqətli olacaq, gənc əsgər hazırlığı kursundan başlayan hərbi xidmət yolumu uğurla davam etdirəcəm.



**Əsgər Əziz Kərimli:**

- Bu təntənəli gün münasibətilə bir-birimizi təbrik edib, sevincimizi, qürurumuzu bölüşdük. Bu günü çox səbirsizliklə gözləyir, mərasimə yüksək səviyyədə hazırlaşırdıq. Komandirlərimiz təntənəli keçidimiz haqqında müsbət fikirlər bildirdilər. Onların əziyyətinin qarşılığını layiqincə verdiyimiz üçün sevindik. Bundan sonrakı fəaliyyətlərimizdə də uğur qazanmaq üçün səylə çalışacağıq. İnanırıq ki, bu gün olduğu kimi, bundan sonra da bütün tapşırıqlarımızın öhdəsindən uğurla gələcəyik. Çünki bizi bir müqəddəs amal birləşdirir - Vətəni qorumaq. Orta məktəbdə oxuyanda fərqli peşələr seçmişdik. Müxtəlif sahələrdə çalışacağımızı arzu edirdik. Lakin hamımızın bir ortaq amalı vardı, əvvəlcə əsgər olaraq, Vətənə xidmət edəcəyik. Bu gün müqəddəs yolun başlanğıcındayıq. Bu günə qədər keçirilən təlimlər, dərslər bizi hərbi xidmətə uyğunlaşdırdı. Digər çağırışçılar kimi biz də gənc əsgər hazırlığı kursuna cəlb olunaraq təcrübəli komandirlərimizdən hərbi xidmətin sirlərini, Hərbi Nizamnamələri və proqramda nəzərdə tutulan digər hərbi bilikləri öyrənəcəyik. Sonra qoşunlarda xidmətə göndəriləcəyik. Əmin ola bilərsiniz ki, andımıza sadiq qalacaq, nümunəvi xidmətimizi orada da davam etdirərək, hərbi vəzifələrimizi uğurla yerinə yetirəcəyik. Hərbi Andı qəbul edib Azərbaycan Ordusunun sıralarına daxil olan bütün gəncləri təbrik edir, hər birinə müqəddəs və şərəfli xidmətlərində uğurlar arzulayıram.

**Əsgər Nurlan Sultanlı:**

- Bu gün həyatımın ən önəmli günüdür. Mən də digər yoldaşlarım kimi, Hərbi Andı qəbul etdim. Andımız təkcə hərbi qaydaların tələbi deyil, o, qanımızla, canımızla qorumağa hazır olduğumuz müqəddəs bir əhdimizdir. Mərasimdə sırada dayanarkən qəlbimdə böyük bir qürur vardı. Komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirəcəyimə, Vətənimizin ərazi bütövlüyünü qoruyacağıma and içəndə gözlərim qarşısına şəhidlərimizin siması gəldi. Onlar bu torpaq uğrunda can verdilər. Biz isə onların davamçılarıyıq. Bu gün onların ruhu qarşısında da and içdik.





44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərin 5-ci ildönümü yaxınlaşır. Qələbəmiz yalnız bir tarix deyil, bizim və gələcək nəsillərin yolunu işıqlandıran böyük bir dərsdir. O Zəfər bizə öyrətdi ki, birlik, mübarizə, inam və iradə ilə aşılmayacaq maneə yoxdur. Biz 30 ilə yaxın işğalda olmuş torpaqlarımızın azad edildiyinə, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunduğuna şahid olan gənclərik, indi isə ərazi bütövlüyümüzün müdafiəsində durmağa hazırlanan əsgərlərik. Qoruyacağımız torpaqlarımız şəhidlərimizin qanı ilə suvarılıb, o torpaqların müdafiəsində dayanmaq böyük məsuliyyətdir. Bu məsuliyyətin, müqəddəs borcun öhdəsindən uğurla gələcəyimizə ürəkdən inanırıq. Çünki biz qəhrəman xalqın övladları, qalib ordunun əsgərləriyik!



Bu gün Hərbi Andı qəbul etdik. Artıq mən sadə bir gənc deyiləm - mən Vətənin əsgəriyəm. Hər günüm Vətən üçündür, hər nəfəsim onun müdafiəsi üçündür. Hər kəs bilsin ki, bu andı qəbul edənlər ərazi bütövlüyümüz, müstəqilliyimiz və suverenliyimiz uğrunda canını qurban verməyə hər an hazırdır. Andımız - Vətənə sədaqətimizdir.

**Əsgər Kazım Kazımov:**

- Bu mərasim bizim həyatımızda ən əlamətdar günlərdən biridir. Əsgər yoldaşlarımızla çiyin-çiynə sevinc və həyəcanla Azərbaycan Respublikasının Silahlı Qüvvələri sıralarına daxil olaraq Vətənimiz Azərbaycana sadiq olacağımıza and içdik. Bu gün həyatımda unudulmaz bir səhifə açıldı. Vətən qarşısında and içdim. Hərbi Andın mətnini qürurla oxuyarkən hiss etdim ki, artıq hər addımım, hər nəfəsim Vətənimiz üçün olacaq. Əsgər olmaq canını Vətənə bağlamaq, onun keşiyində dayanmaqdır. Mərasim zamanı ürəyimdə xüsusi bir həyəcan vardı. Sanki çiyinlərimdə təkcə öz yüküm yox, xalqımızın inamı dayanırdı. Bu hər birimiz üçün tarixi və unudulmaz anlardır. Vətənə sədaqət andı içərək, ayıq-sayıq xidmət aparacağımıza, hərbi və dövlət sirrini qoruyacağımıza söz verdik. Bu and bizim üçün pozulmaz qanundur. Ölüm təhlükəsi belə bizi bu andı pozmağa məcbur edə bilməz. Söz veririk ki, xidmətimizdə məsuliyyətli, nizam-intizamlı olacaq, öyrədilən hərbi biliklərə dərindən yiyələnmək üçün var qüvvəmizlə çalışacağıq. Hər birimiz bacarıqlı əsgərlər kimi formalaşaraq torpaqlarımızın keşiyində inamla dayanacağıq. Mən də andıma sadiq qalacağam. Bundan sonrakı mərhələni də böyük məsuliyyətlə keçəcəyik. Komandirlərimizin öyrətdiklərini həvəslə mənimsəyirik. Bu həvəs, əslində, hərbi xidmətə olan maraqdır, orduya sevgidir. Rəşadətli və qalib ordunun əsgəri olmaq bizim üçün stimuldur. Biz bacarıqlı Vətən müdafiəçisi kimi formalaşırıq. Vəzifə borclarımızı, silahımızın taktiki-texniki və atış xüsusiyyətlərini öyrənirik, öyrəndiklərimizi təlim meydanlarında təkmilləşdirəcəyik. Bizim gücümüz andımızdadır. Vətənə, xalqa, bayrağa sədaqət - bunlar əsgərin ən böyük silahıdır. Mən də bu gündən həmin silahı ürəyimdə daşıyıram.

**Əsgər Turan Abbaszadə:**

- Bu gün bizim üçün çox əlamətdar bir gündür - Vətənə sədaqət andı içdik. Hər birimizin ürəyində böyük bir qürur hissi var. "Bilsin ana torpaq, eşitsin Vətən, Müsəlləh əsgərəm mən də bu gündən!". Böyük şairimiz Səməd Vurğunun "Vətən keşiyində" şeirindən götürülən bu misralar sanki bu gün üçün yazılıb. Artıq biz də Hərbi Andı qəbul edərək güclü ordumuzun sıralarında ilk qədəmlərimizi atırıq. Fəxr edirəm ki, Azərbaycan Ordusunun sıralarında Vətənə xidmət edirəm. Torpaqlarımızın azadlığı uğrunda minlərlə oğullarımız canından keçib.



Onların ruhu qarşısında baş əyirəm və əmin edirəm ki, biz - gənc əsgərlər də Vətənin keşiyində daim ayıq-sayıq dayanacağıq.

Burada bizə yaradılan şəraitdən çox razıyıq. Bu əlamətdar günün qüruru və sevinci bizdə ruh yüksəkliyi və məsuliyyət hissi yaradır. Bizim güclü, müasir, qalib ordumuz var. Dövlətimiz hər bir əsgərə xüsusi diqqət və qayğı göstərir, sosial-məişət şəraitini yüksək səviyyədə təmin edir. Biz ən şanslı gənclərik ki, qalib ordunun əsgərləriyik və erməni işğalından azad olunmuş torpaqlarımızın keşiyində dayanacağıq. Bu vəzifə bizim üçün müqəddəs və ikiqat qürurludur. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında ərazi bütövlüyümüzü inamla qoruyacaq, istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olan əsgərlər kimi formalaşacağıq.



# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

**1. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri.**

**2. Bölmənin şəxsi heyətinin qoşun xidmətini yerinə yetirmək üçün hərtərəfli hazırlığa səfərbərliyi.**

**3. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir.**

**Mövzu:** Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin nümunəvi aparılması ordunun yüksək döyüş hazırlığının rəhnidir.

### Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri

Hərbi hissələrin və bölmələrin daimi yerləşmə yerlərində, düşərgələrdə və döyüş şəraitində yüksək döyüş hazırlıqlı olmalarını, qarşıya qoyulmuş döyüş tapşırıqlarını vaxtında və müvəffəqiyyətlə həll etmələrini, mühüm hərbi obyektlərin etibarlı mühafizəsini, bölmələrdə daxili qayda-qanunun saxlanmasını, bölmələrin silah və sursatının, əmlakının qorunmasını təmin etmək üçün döyüş və ümumqoşun nizamnamələrinin tələbləri əsasında müvafiq xidmətlər təşkil olunur. Bu xidmətlər öz xüsusiyyətlərinə görə fərqlənirlər:

- **daxili xidmət** - hərbi hissələrdə, bölmələrdə, parklarda, tədris müəssisələrində, düşərgələrdə, eləcə də qoşunların yerdəyişməsi zamanı günün nizam qaydalarına ciddi riayət olunması, daxili qayda-qanunun saxlanması, silah və sursatın, digər əmlakın qorunması üçün Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsinə uyğun təşkil edilir;
- **qarovul xidməti** - Döyüş Bayrağının, silahların, döyüş texnikasının, sursatların, partlayıcı maddələrin və digər əmlakın saxlanıldığı anbarların və s. hərbi obyektlərin etibarlı mühafizəsini və müdafiəsini təmin edir;
- **döyüş mühafizəsi və döyüş növbətçiliyi** - hərbi hissə və bölmə qarşısında qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmək, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin etmək üçün təşkil edilir.

Döyüş mühafizəsi və döyüş növbətçiliyinə təyin olunan bölmənin hər bir hərbi qulluqçunun əsas vəzifələrindən biri də təhkim olunmuş döyüş və digər texnikanın, silahların, avadanlıqların həmişə saz, döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazır vəziyyətdə saxlanılmasıdır. Döyüş mühafizəsinə təyin olunan hərbi qulluqçu hər hansı bir ekstremal şəraitdə vəzifə borcunu yerinə yetirməyə özünü hazırlamalıdır.

**Bu vəzifələri nümunəvi yerinə yetirmək üçün görülən işlərin əsas məqsədi:**

- bölmə və hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, qoşun xidmətinin əhəmiyyətini hərbi qulluqçulara ətraflı izah etmək;
- hərbi qulluqçularda yüksək şüurluluq, əqidə möhkəmliyi, siyasi sayıqlıq, qarovul və qarnizon xidmətində, döyüş mühafizəsi və döyüş növbətçiliyində öz vəzifə borclarını dəqiq və qüsursuz yerinə yetirmək üçün şəxsi cavabdehlik hissləri tərbiyə etmək;
- hərbi qulluqçuları qoşun xidmətinə dair sənədləri, təlimatları, müdafiə nazirinin əmrlərini, hərbi nizamnamələri, Azərbaycan Respublikasının qanunlarını dərindən öyrənməyə yönəltmək;
- hərbi nizamnamələrin tələblərinin, qarovul və qarnizon xidməti qaydalarının, döyüş mühafizəsi və döyüş növbətçiliyinin aparılma qaydalarının pozulmasına görə hərbi qulluqçuların məsuliyyətini müəyyənləşdirən hüquq normalarını izah etmək;
- daxili xidmət, qarovul və qarnizon xidmətlərinin yerinə yetirilməsində qabaqcıl təcrübənin öyrənilməsini, ümumiləşdirilməsini və yayılmasını təşkil etmək, qoşunlarda mövcud ənənələri, xidmətdə hünər və qəhrəmanlıq nümunələrini təbliğ etmək;
- qarovula, daxili naryada, döyüş növbətçiliyinə və döyüş mühafizəsinə hazırlıq dövründə və xidmət edərkən hərbçilərlə daha təsirli təlimat və tərbiyəvi xarakterli işlər aparmaq, qabaqcıl təcrübəni komandirlər (rəislər) və şəxsi heyət arasında yaymaq;
- naryadda olan hərbi qulluqçuların maddi-məişət və mədəni tələbatlarının öyrənilib təmin olunmasına qayğı göstərməkdir.

### Bölmənin şəxsi heyətinin qoşun xidmətini aparmaq üçün hərtərəfli hazırlığa səfərbərliyi

Daxili xidmətə, qarovul və qarnizon xidmətinə hazırlıq prosesində hərbi nizamnamələrin öyrənilməsi, hərbi qulluqçulara nizamnamə tələbləri ilə yaşamaq və xidmət etmək hissi aşılamaq başlıca yer tutur. Bu məqsədlə döyüş və humanitar hazırlıq məşğələlərindən əlavə məqsədyönlü təbliğat işləri aparılır. Bölmələrdə, hissələrdə və gəmilərdə mühazirələr oxunur, konfranslar keçirilir, söhbətlər aparılır. Mövzuların təxmini adları:

"Nizamnamə qaydalarının yerinə yetirilməsində qoşun xidmətinin əhəmiyyəti", "Hərbi nizamnamələr hərbçi həyatının hüquqi və mənəvi normalarının toplusudur" və s.

Komandirlər və şəxsi heyətlə iş üzrə zabitlər gənc əsgər və matroslara nizamnamələrin əsas müddəalarını izah etdikdə onların diqqətini gündəlik naryadda vəzifə borclarını bilmələrinə, gün növbətçisinə və patrula verilən konkret tapşırıqlara cəlb etməlidirlər.

Hərbi qulluqçularda öz vəzifə borclarını qüsursuz yerinə yetirmək üçün lazım olan mənəvi və döyüş keyfiyyətlərinin formalaşmasında ictimai-siyasi hazırlıq dərslərinin böyük rolu var. Ona görə də ictimai-siyasi hazırlıq dərslərində qrup rəhbərləri döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılmasında möhkəm intizamın və yüksək sayıqlığın əhəmiyyətini daha dərindən anlamaqda hərbi qulluqçulara köməklik edirlər. Məhz bu dərslərin sayəsində şəxsi heyətin döyüş ruhu formalaşır, dünyagörüşü artır, mənəvi maariflənməsi həyata keçirilir.

Qoşun xidmətinə dair məsələlər məruzələrdə, söhbətlərdə, divar qəzetlərində və döyüş vərəqələrində işıqlandırılır. Hərbi hissələrdə hər ayın axırında qoşun xidmətinin təhlili aparılır, yekunlaşdırılır və hərbi hissə komandirinin müvafiq əmri ilə elan edilir. Həmin əmrdə qoşun xidmətinin yoxlanılması zamanı aşkar edilmiş nöqsanlar göstərilir, daxili naryad, qarovul, döyüş növbətçiliyi xidmətlərinin aparılmasını yaxşılaşdırmaq üçün tədbirlər müəyyən edilir, eləcə də fərqlənənlərə həvəsləndirmə tətbiq edilir.

### Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir

Daxili xidmətə təyin olunmuş hərbi qulluqçularla iş aparılarkən yataqxanada, döyüş maşınları parkında, yeməkxanada, hərbi şəhərciyin ərazisində nizamnamə qaydalarına əməl edilməsinə onların cavabdehliyi xüsusi qeyd olunur, lazımi təlim məşğələsi keçirilir və bu məşğələdə yerli şəraitə uyğun yüksək sayıqlıq və döyüş hazırlığını təmin edən amillər öyrənilir. İndiki dövrdə qarovul xidmətinin, döyüş mühafizəsinin və döyüş növbətçiliyinin xüsusi əhəmiyyət kəsb etməsi məşğələdə dinləyicilərə çatdırılmalıdır. Bu isə ondan irəli gəlir ki, düşmən kəşfiyyatçıları ordumuzun döyüş sayıqlığı və qoşunların yerləşdiyi məntəqələr haqqında məlumat toplamaq üçün hər cür vasitələrə əl atırlar.

Hərbi Dəniz Qüvvələrinin gəmilərində növbətçiliyin xüsusi növü - "vaxta" xidməti təşkil olunur. Gəminin və onun mexanizmlərinin idarə olunması şəraitinə nəzarət etmək, düşmənin qəfil hücumu zamanı silah tətbiqini və gəmidə nizam-intizamın gözlənilməsini təmin etmək üçün növbətçi daim sayıq olmalıdır. Qarovul rəisi hərbi hissənin (birləşmənin) anbar, park və maşın (təyyarə, qurğu) dayanacaqlarının və digər mühüm obyektlərin mühafizə postlarına xidmətə təyin olunan şəxslərlə xüsusi iş aparır və onların daha sayıq olmasına daim nəzarət edir.

Qoşunların fəaliyyətində daxili xidmət naryadlarının, qarnizon və qarovul xidmətlərinin xüsusi əhəmiyyəti vardır. Bu xidmətlər hissə və bölmələrin döyüş hazırlığını müəyyən edən müasir tələblər əsasında hərbi nizamnamələrə uyğun təşkil olunur. Daxili naryadın vəzifəli şəxslərinin hazırlığı onların nizamnamə vəzifələrini yerinə yetirmələrini təmin edir. Ona görə də naryada təyin olunan şəxsi heyət öz vəzifə borclarını, müxtəlif şəraitlərdə, məsələn, "həyəcan", "toplanış" siqnalları alarkən, silah-sursat verərkən, səhər baxışı və axşam yoxlamaları apararkən, məşğələ saatlarında hərəkət qaydalarının öyrənilməsinə məsuliyyətlə yanaşmalıdır. Naryada təyin olunan hər bir hərbi qulluqçu nizamnamə üzrə vəzifələrini əsaslı təkrar etməlidir.

Qarovul (vaxta) xidmətinə təyin olunan hər bir əsgər, çavuş bu xidmətin döyüş tapşırığı olduğunu, qarovulda qoyulmuş tapşırıqların yüksək məsuliyyətini şüurlu dərk etməli, nizamnamə qaydalarının hər cür pozulmasına qarşı ciddi mübarizə aparmalıdır.

Qarovulda əsas diqqət Döyüş Bayrağının, saxlancların, parkların mühafizəsinə, eləcə də gecə vaxtı və pis hava şəraitində xidmət aparan şəxsi heyətin təlimatlandırılmasına yönəldilir. Onlar öz vəzifələrini yerinə yetirərkən yüksək sayıqlıq nümayiş etdirməlidirlər.

Qarnizon xidmətinin şəxsi heyəti ilə aparılan işlərin forması və məzmunu qarovul xidmətində olduğu kimidir. Lakin burada hərbi qulluqçulara təlimat keçərkən onların hərbi hissədən kənara çıxması, yerli əhali ilə təmasda olması qeyd edilir və ona görə də onlardan daim sayıqlıq, hərbi sirləri qoruyub saxlamaq, təmkinlilik, nümunəvi xarici görünüş tələb olunur. Ümumiyyətlə, aparılan işlərin əsas məqsədi hərbi qulluqçuları şəraitdən asılı olmayaraq hərbçi şərəfinə layiq xidmət etməyə, Hərbi Andın, nizamnamələrin və komandirlərin (rəislərin) tələblərini dəqiq və qüsursuz yerinə yetirməyə ruhlandırmaqdır.

Bu gün Azərbaycan əsgəri dövlətin qayğısını hər zaman üzərində hiss edərək, xalqdan güc alaraq torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır və istənilən silahlı təxribata layiqli cavab verməyə hər an hazırdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 15 oktyabr 2023-cü ildə Xankəndi şəhərində xalqa müraciətində demişdir: "...Bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror tədbirləri bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu..."

Bu gün Azərbaycan əsgəri torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır. Regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir. Bu gün Azərbaycan əsgəri Vətənin maraqlarını şərəflə qoruyur.

Bir vaxtlar prioritet vəzifəsi ərazi bütövlüyümüzü bərpa etmək olan ordumuz, bundan sonra da həmin bütöv və qüdrətli Azərbaycan Respublikasının qorunmasında öz missiyasını layiqincə yerinə yetirəcək. Daim öz xalqının iftixar mənbəyi kimi tarixin şanlı səhifələrində özünə yer tapması üçün hər bir hərbi qulluqçudan ona həvalə edilmiş vəzifələrin məsuliyyətini dərindən dərk edilməsini tələb edilir. Yalnız möhkəm hərbi intizama malik olmaqla komandirlərin əmr və göstərişlərini dəqiq və sözsüz yerinə yetirməklə dərslərdə, təlimlərdə və gələcək döyüşlərdə yüksək nəticələr əldə etmək olar.

***Qeyd:*** *İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu məşğələyə hazırlaşarkən Daxili Xidmət Nizamnaməsinin, Qarnizon və Qarovul Xidməti Nizamnaməsinin, Qoşun Xidməti haqqında əmr və təlimatların tələblərini diqqətlə öyrənməli və məşğələyə hazırlaşarkən öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə bağlamalıdır.*

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**



## *Sıra hazırlığı*

# “Nizam-intizam sıradan başlanır”

(Əvvəli 1-ci səhifədə)

Əsgərlərin xidməti dövrlərində də gündəlik fəaliyyətləri arasında sıra hazırlığı mühüm yer tutur. Bu məşğələlərdə onlara Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sıra Nizamnaməsinə uyğun olaraq dərslər keçirilir, sırada silahsız və silahla sıra hərəkətlərini və yerişini, əsgəri salamlaşma qaydalarını, hərbi qulluqçuların düzülüşdən qabaq və sırada vəzifə borclarını, sıra hazırlığına olan tələbləri, yuxarı rəislərə yaxınlaşma və digər elementlər öyrədilir. Bunlarla yanaşı, sıra hazırlığı həm də əsgərlərə yüksək intizam aşılayır.

"N" hərbi hissəsində əsgərlər sıra hazırlığı məşğələsində silahsız hərəkət üsullarını öyrənirdilər. Leytenant Elmir Əhmədzadənin göstərişi ilə onlar əsgəri salamlaşma, yerində və hərəkətdə addımlama, yuxarı rəislərə yaxınlaşma və digər komandaları dəqiqliklə icra edirdilər. Sıra meydanında sıra hazırlığının elementlərinin yerinə yetirilməsi üçün asfalt üzərində çəkilən ağ xətlərin, düzbucaqlı formasında fiqurların canlılığı məşğələ keçən hərbi qulluqçuların zövqünü oxşayır, dərsin daha da səmərəli keçirilməsinə zəmin yaradırdı. Əsgərlərin hərəkətləri nizamla yerinə yetirməsindən yaranan ritmik səslər, demək olar ki, hərbi hissənin bütün ərazisinə yayılırdı. Onların şux qamətləri, məğrur baxışları, qabaran sinələri və verilən bütün komandaları cəld və nizamlı şəkildə yerinə yetirmələri xoş ovqat bağışlayır, qəlbimizdə sevinc hissləri oyadırdı. Üzlərində yaranan təbəssümü, baxışlarındakı qüruru izlədikcə ruhumuza fəxr hissi hakim olurdu. Nizami ordumuzla, əsgərlərimizlə bir daha qürur duyur, qüdrətli Azərbaycan Ordusunun vətənpərvər, igid, bacarıqlı oğulları ilə öyünürdük.

Fasilədə leytenant Elmir Əhmədzadə ilə söhbətləşdik. Onun seçdiyi peşənin sirlərinə dərindən yiyələndiyinin və işinə ürəkdən bağlı olduğunun şahidi olduq - gənc olsa da, kifayət qədər bacarıqlı və savadlıdır.

- Nizam-intizam sıradan başlanır, - gənc zabit dedi. - Məşğələyə başlamazdan əvvəl əsgərlərə sıranın müqəddəsliyindən danışıram. Bu sıralarda Mübarizlərin, Raqufların, Samidlərin, Poladların, Orxanların, Zaurların... və daha neçə-neçə qəhrəmanın dayandığını izah edirəm. Şahidi oldunuz ki, əsgərlərin hər biri verilən komandaları necə bacarıqla icra edirlər. Onların məşğələyə belə həvəs göstərməsi, bacarıq nümayiş etdirməsi mənə də xoş gəlir. Sevinirəm ki, vaxtilə mənə öyrədilən hərbi bilikləri əsgərlərimə öyrədə bilir, vəzifələrimin öhdəsindən layiqincə gəlirəm.

Fasilə vaxtında əsgərlərlə də söhbətləşdim. Amal Vəli, Fərid Səfiyev, Məmmədyar Orucov, Əli Quliyev, Eldar Əliyev, Elnar İsgəndərov, Nurlan Muradlı və digərlərinin sözlərindən əmin oldum ki, hər biri Vətənə sonsuz sevgi ilə bağlıdır, hərbi xidmətin vacibliyini, məsuliyyətini yaxşı dərk edir, bacarıqlı əsgərlər kimi formalaşmaq üçün var qüvvələri ilə çalışırlar. Onlar hərbi xidmətə Vətəni qorumaq kimi müqəddəs vəzifəni yerinə yetirməyə gəldiklərini vurğulayaraq dedilər: "Bu vəzifə hər birimiz övladlıq borcumuzdur. Ordumuzun gücü və qüdrəti bütün dünyaya bəllidir. Fəxr edirik ki, qalib Azərbaycan Ordusunun sıralarındayıq. Bacarıqlı əsgərlər kimi formalaşmaq üçün keçirilən bütün məşğələlərdə fəal iştirak edirik. Silahlardan istifadə etməyi, döyüş bacarıqlarını öyrəndiyimiz kimi, sırada dayanmağı, sıra hərəkətlərini də öyrənirik. Həmçinin hər birimiz yaxşı anlayırıq ki, qalib ordumuzun adına layiqli əsgərlər olmaq üçün nizam-intizamlı olmaq ən vacib şərtdir. İntizamın əsasını təşkil edən sıra hazırlığı məşğələsində bütün öyrədilənləri həvəslə mənimsəyirik. Sıra hazırlığı gündəlik bütün fəaliyyətlərimizin tərkib hissəsidir. Yeməyə, idmana, atışa və digər dərslərə gedişimiz, səhər baxışına, axşam yoxlanışına düzülüşümüz... Bir sözlə, hər bir işimiz sıra ilə tənzimlənir. Ona görə də sıra meydanında öyrədilən nizam-intizama daim əməl edir, uğurlu xidmətimizlə bizə göstərilən etimadı doğultmağa çalışırıq".



Fasilə bitdikdən sonra zabitin komandası ilə əsgərlər cəld şəkildə təyin olunmuş yerdə yenidən düzülür, məşğələyə davam edirlər. Onların nizam-intizamı, sırada davranışları, aralarındakı sağlam mühit ordumuzda dəmir intizamın olduğunu bir daha nümayiş etdirirdi.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

## *Fiziki hazırlıq*

# “İdman döyüş qabiliyyətimizə müsbət təsir göstərir”

(Əvvəli 1-ci səhifədə)

"N" hərbi hissəsində xidmət edən baş leytenant Xaləddin Əzizov da bu fikirləri təsdiq etdi. Onunla hərbi hissənin idman şəhərciyində görüşdük. Şəxsi heyətə fiziki hazırlıq məşğələsi keçən zabitin indiki Heydər Əliyev adına Hərbi İnstitutun məzunu olduğunu öyrəndik. Əslən Kürdəmir rayonundan olan Xaləddin dedi ki, döyüş meydanında qələbələr qazanmaq üçün döyüşə hər cəhətdən hazır olmalısan. "Döyüş hazırlığı çoxşaxəlidir. Bu şaxələrin hamısı qələbədə mühüm rol oynayır. Fiziki güc də döyüş hazırlığının vacib və ayrılmaz qoludur. Hər bir hərbçi yaxşı bilir ki, döyüş taktikasının hücum və müdafiə növü var. Biz də müstəqilliyimiz, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda təhdidlərə qarşı hər an hazır olmalıyıq. Döyüş daha çox cəldlik, çeviklik tələb edir. Çünki savaşda düşmənlə əlbəyaxa döyüş qaçılmazdır. Bu da fiziki gücün vacibliyini bir daha göstərir. Həm də insan idman etməklə sağlam və möhkəm bədənə sahib olur. Bir sözlə, fiziki hazırlığın vacibliyini aşkar edən bir çox səbəblər vardır. Bunların hamısı bir daha göstərir ki, fiziki hazırlıq döyüş hazırlığının ayrılmaz hissəsidir".



Zabitin dediklərinin əyani şahidi də olduq. O, məşğələ zamanı şəxsi heyətə idman hərəkətlərini həvəslə izah edib öyrədirdi. Hiss olunurdu ki, peşəsini sevir, vəzifələrinə məsuliyyətlə yanaşır və tabeliyində olanları bacarıqlı əsgərlər kimi formalaşdırmaq üçün bütün biliklərini səfərbər edirdi. Əsgərlər hərəkətləri idman alətlərində bacarıq nümayiş etdirirdilər. Onların fiziki hazırlığının yüksək olduğunu, idman normativlərinin öhdəsindən uğurla gəldiklərini izləyirdik. Hər biri turnikdə, paralel qollarda və digər idman alətlərində məşqlərini bacarıqla yerinə yetirirdi. İzlədikcə qəlbimizə bir inam hakim olurdu - sağlam, qüvvətli, yüksək döyüş hazırlıqlı və ürəyi Vətən sevgisi ilə döyünən əsgərlərimiz torpaqlarımızın müdafiəsində qətiyyətlə dayanır və istənilən əmri uğurla icra etməyə hər an hazır və qadirdilər.

Məşğələ bitdikdən sonra əsgərlərdən öyrəndik ki, onlar idmanın Vətənin müdafiəsi üçün vacibliyini yaxşı dərk edirlər. İdman hərəkətləri edərkən üzlərindəki təbəssüm, məğrurluq onların məşğələyə həvəslə yanaşdığını göstərirdi. Həmçinin çevik hərəkətləri, müxtəlif idman normativlərini uğurla yerinə yetirmələri fiziki cəhətdən hazırlıqlı olmalarını əyani sübut edirdi. Əsgərlərdən Niyaməddin Sayadov, Nəriman Muradov, Elşən Rzayev, Elşən Hüseynov, Elcan Atakişiyev və digərləri dedilər ki, mülki həyatda da idmanın müxtəlif növləri ilə məşğul olublar. Niyaməddin kikboksinqlə məşğul olub. O, iştirak etdiyi yarışlarda Gəncə şəhəri üzrə 1-ci və 2-ci, Şəmkir rayonu üzrə isə 1-ci yeri tutub. Nəriman Muradov, Elşən Hüseynov, Elşən Rzayev və Elcan Atakişiyev idmanın sərbəst güləş növü ilə məşğul olublar. Bu idman növü üzrə yeniyetmələr arasında keçirilən yarışlarda iştirak edən E.Rzayev Cəlilabad rayonu üzrə, E.Hüseynov isə Tovuz rayonu üzrə 1-ci yerin qalibləri olublar. Uzun müddət ailəsi ilə Ukraynada yaşayan Elcan Atakişiyev isə orada öz yaşıdları üzrə keçirilən yarışlarda dəfələrlə qalib olub. Hal-hazırda yaşadıqları Şəmkir rayonunda isə bir dəfə 2-ci yeri tutub. "Biz yaxşı anlayırıq ki, gündəlik bütün fəaliyyətlərimiz yalnız bir məqsədə yönəlib - döyüş hazırlığımızı ən yüksək səviyyəyə çatdıraq. Bu vəzifə isə hər birimiz üçün müqəddəsdir. Bütün dərslərə olduğu kimi, idman saatlarına da ciddi yanaşır, həvəslə məşq edirik. Azərbaycan Ordusu rəşadətli və qalib ordudur. Biz də nümunəvi xidmət edib ordumuzun adına layiqli əsgərlər olmaq üçün səy göstəririk. Bunun üçün hərbi bilik və vərdişlərə dərindən yiyələnir, eyni zamanda, fiziki gücümüzü də daim artırırıq. Güclü olmalıyıq ki, döyüş meydanında düşməni məhv edək. Onun üçün də bu gün idman saatlarından, boş vaxtlarımızdan səmərəli istifadə edib müxtəlif idman hərəkətləri edir, fiziki göstəricilərimizi ən yüksək səviyyəyə çatdırmaq üçün çalışırıq. Komandirlərimiz bizi idmana daha da həvəsləndirir, mütəmadi olaraq müxtəlif idman yarışları təşkil edirlər. Hər kəs əmin olsun ki, biz Böyük Qələbə qazanan, yenilməz Azərbaycan əsgərlərinin davamçılarıyıq, onların vətənpərvərliyini, igidliyini, döyüş yolunu özümüzə nümunə bilirik. Onların bizə əmanət etdikləri Vətənimizin keşiyində mətin dayanırıq", - əsgərlər dedilər.

Digər əsgərlər də fiziki hazırlığın döyüş qabiliyyətinə müsbət təsir göstərdiyini, dözümlülük, çeviklik, özünəinam kimi müsbət keyfiyyətlər aşıladığını öz sözləri ilə təsdiq etdilər. İdman şəhərciyinin ürəkaçan görünüşü, hər növ alətlərlə təmin olunması, həmçinin hərbi qulluqçularla söhbətimiz bir daha sübut etdi ki, hərbi hissələrimizdə bütün növ təminat-təchizat yüksək səviyyədə təşkil olunub və hərbi xidmətə çağırılan gənclərin bacarıqlı əsgərlər kimi formalaşması üçün hər cür şərait yaradılıb.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# Planetimizdə şirin su ehtiyatları sürətlə tükənir



ABŞ-ın Arizona Dövlət Universitetinin alimlərinin "Science Advances" jurnalında dərc olunan qlobal araşdırmasına görə, 2002-ci ildən bəri Yer kürəsinin qitələri şirin su ehtiyatlarını sürətlə itirir. İtkilərə iqlim dəyişikliyi, yeraltı sulardan səmərəsiz istifadə və getdikcə tez-tez baş verən ekstremal quraqlıq səbəb olur.

"GRACE" və "GRACE-FO" peyklərinin təhlilinə əsasən, son 22 il ərzində planetdə dörd böyük quraqlıq regionu formalaşıb ki, bunların hamısı Şimal yarımkürəsində yerləşir. Onların arasında ABŞ-ın cənub-qərbi və Meksika, Alyaska və Kanadanın şimalı, Rusiyanın şimalı və Yaxın Şərqdən Şimali Afrika və Avrasiyaya qədər geniş bir zona da var.

Əslində, tədqiqat göstərir ki, 2002-ci ildən bəri yalnız tropiklər orta hesabla enliyə görə daha rütubətli olmağa davam edir ki, bu da IPCC (İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panel) iqlim modelləri - gələcək iqlim ssenarilərini proqnozlaşdırmaq üçün istifadə edilən mürəkkəb kompüter proqramları tərəfindən proqnozlaşdırılmayıb. Davamlı müşahidələr suyun dövr etməsində uzunmüddətli dəyişiklikləri başa düşmək üçün çox vacibdir.

Alimlər hesablayıblar ki, quru ərazilərin sahəsi hər il Kaliforniyanın ərazisindən iki dəfə sürətlə böyüyür. Xüsusilə narahatlıq doğuran odur ki, su itkisinin 68%-i yeraltı mənbələrdən qaynaqlanır və onlar çox yavaş doldurulur. Minilliklər boyu toplanmış bu görünməz ehtiyatlar indi Qrenlandiya və Antarktida buzlaqlarının birləşdiyindən daha tez istifadə olunur. Dünya əhalisinin 75%-i artıq şirin su ehtiyatlarının tükəndiyi ölkələrdə yaşayır; kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi təhdid altındadır; dəniz səviyyəsi daha sürətlə yüksəlir, çünki təkcə buzlaqlar deyil, yeraltı su ehtiyatları da azalır.

Tədqiqatın rəhbəri, professor Cey Famiglietti deyir: "Bu, bəlkə də iqlim dəyişikliyinin su ehtiyatlarına təsiri ilə bağlı ən həyəcanverici siqnaldır. Biz hərəkət etməli olduğumuz bir nöqtəyə çatdıq: yeraltı sulardan istifadəni tənzimləməyin və qlobal su təhlükəsizliyi strategiyaları qurmağın vaxtıdır".

Dönüş nöqtəsi 2014-2015-ci illər, güclü El-Nino iqlim hadisəsi dövrü olub. Məhz həmin vaxt torpağın quruması buzlaqların ərimə sürətini aşıb və vəziyyət getdikcə pisləşib.

Tədqiqatçılar vurğulayırlar ki, beynəlxalq əməkdaşlıq və yeni su idarəçiliyi strategiyaları olmadan bəşəriyyət geniş miqyaslı böhranla - pisləşən quraqlıq və içməli su qıtlığından tutmuş iqlim miqrasiyasının yeni dalğalarına qədər risklə üzləşir.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

## Çanaqqaladakı meşə yanğını nəzarət altına alınıb



Türkiyənin Çanaqqala vilayətinin Gelibolu yarımadasında meşə yanğını tam nəzarət altına alınıb.

Bu barədə ölkənin kənd və meşə təsərrüfatı naziri İbrahim Yumaklı "Next Sosial" hesabında məlumat açıqlayıb.

Nazir paylaşımında meşələrin qorunmasının vacibliyini də vurğulayıb.

## Pakistanın şimalında baş verən daşqınlar nəticəsində ölənlərin sayı 350-ni ötüb



Pakistanın şimalında leysan yağışların səbəb olduğu daşqınlar nəticəsində ölənlərin sayı 351 nəfərə çatıb.

Bu barədə "Geo News" kanalı məlumat yayıb.

Bildirilir ki, daşqınlar nəticəsində Xayber-Paxtunxva əyalətində 328, Gilqit-Baltistanda 12, Azad Kəşmirdə isə 11 nəfər həyatını itirib.

Ölkənin şimalında güclü yağışların avqustun 21-dək davam edəcəyi gözlənilir.

Pakistanın Baş naziri Şahbaz Şərif Xayber-Paxtunxva əyalətinə dərman, qida və digər zəruri yardım materiallarının dərhal çatdırılması barədə göstəriş verib.

## İtaliya sahillərində 30 miqrant xilas edilib



İtaliyanın sahil mühafizə xidmətinin əməkdaşları dənizdə kiçik qayıqda köməksiz vəziyyətdə qalan 30 miqrantı xilas ediblər.

Sahil mühafizə xidmətinin patrul gəmiləri sahildən 150 mil aralıda, İon dənizində 7 metrlik qayıq aşkarlayıb. Xilas edilən miqrantlar patrul gəmiləri ilə ölkənin cənubundakı Kalabriya regionunun Rokkella İonika qəsəbəsinə çatdırılıblar, onlara təcili yardım xidmətləri göstərilib.

Qayığın Liviyadan yola düşdüyü, sərnişinlərin isə əsasən Banqladeş və Misir vətəndaşları olduqları bildirilib.

## Monteneqroda meşə yanğınları davam edir



Monteneqronun müxtəlif regionlarında meşə yanğınları ilə mübarizə aparılır.

Ölkənin Danilovqrad, Nikşiç, Piperi və Kuçi bölgələrində yanğınların davam etdiyi bildirilir.

Yanğınsöndürmə əməliyyatlarına Monteneqro Ordusu və yerli sakinlər, eləcə də Avstriya, İsveçrə, Serbiya, Bosniya və Herseqovina və Çexiyanın helikopterləri ilə mülki müdafiə qrupları cəlb olunub.

Qeyd edək ki, Monteneqroda iyul ayının ortalarında başlayan meşə yanğınları avqustda daha geniş əraziləri əhatə edib.

## Qazaxıstanda yüngülmotorlu təyyarə qəzaya uğrayıb, iki nəfər həlak olub




Qazaxıstanın Akmola vilayətində xüsusi uçuş edən "Aerostar R40F UP-LA229" markalı yüngülmotorlu təyyarə qəzaya uğrayıb.

Qəza nəticəsində iki nəfər - pilot və sərnişin həlak olub.

Hadisənin səbəblərini araşdırmaq üçün xüsusi komissiya yaradılıb.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

## Dünya çempionatı: Azərbaycanın iki sərbəst güləşçisi bürünc medal qazanıb



Bolqarıstanın Samokov şəhərində U-20 dünya çempionatı davam edir.

İkinci yarış günündə 2 sərbəst güləşçimiz bürünc medal qazanıb.

Nurlan Ağazadə (70 kiloqram) debüt etdiyi mundialda fəxri kürsünün üçüncü pilləsinə yüksəlib. Həmyerlimiz həlledici görüşdə gürcüstanlı Qoqa Otinaşvilidən güclü olub - 4:0.

Yusif Dursunov (125 kiloqram) bürünc medal uğrunda qarşılaşmada fransalı Levan Laqvilavayla üz-üzə gəlib. Son saniyələrdə həlledici xalı alan güləşçimiz 2:1 hesabı ilə dünya üçüncüsü olub.

## Azərbaycan cüdoçuları Macarıstanda 4 medal qazanıblar



Macarıstanın Dyör şəhərində Avropa Cüdo Ümidləri Turniri keçirilib.

Avropa Cüdo Birliyinin təşkilatçılığı ilə baş tutan yarışda Azərbaycan cüdoçuları 1 qızıl və 3 bürünc medal əldə ediblər.

U-15 yaş kateqoriyasında Aqşin Bayramov (60 kiloqram) qızıl, Səttar Qədirov (42 kiloqram), Fərhad Quliyev (60 kiloqram) və U-13 yaş kateqoriyasında Fəxrim Məhərrəmov (42 kiloqram) bürünc medala yiyələniblər.

Beynəlxalq turnirdə 19 ölkədən 273 cüdoçu iştirak edib.

## Azərbaycan millisinin basketbolçusu "Abşeron Lions" komandasına keçib



"Abşeron Lions" komandası heyətinə yeni basketbolçu cəlb edib.

Bakı klubu Rüstəm Əliyevin keçidini rəsmiləşdirib.

Azərbaycan millisinin üzvü ilə 1 illik müqavilə imzalanıb.

Qeyd edək ki, Rüstəm Əliyev son olaraq "Ordu" klubunda çıxış edib.

## Azərbaycanın boks millisi dünya çempionatına son hazırlıqları Qoridə keçəcək




Kişi boksçulardan ibarət Azərbaycan millisi dünya çempionatına hazırlığı Gürcüstanda davam etdirəcək.

Yığma təlim-məşq toplanışının son mərhələsi üçün bu gün Qori şəhərinə yollanacaq.

Heyətdə Sübhan Mamedov (50 kiloqram), Nicat Hüseynov (55 kiloqram), Məhəmmədəli Qasımzadə (60 kiloqram), Zaur Qəhrəmanov (65 kiloqram), Sərxan Əliyev (70 kiloqram), Səidcəmşid Cəfərov (75 kiloqram), Murad Allahverdiyev (80 kiloqram), Surət Qarayev (85 kiloqram), Alfonso Dominqes (90 kiloqram) və Məhəmmməd Abdullayev (+90 kiloqram) yer alıblar. Komanda Qoridə, əsasən, taktiki-texniki hazırlığa diqqət ayıracaq.

Toplanış avqustun 29-da yekunlaşacaq.

Qeyd edək ki, dünya çempionatı sentyabrın 4-14-də İngiltərənin Liverpul şəhərində keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş İslamov Orxan Nazim oğluna verilmiş AD № 0035206 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Rəşid HÜSEYNOV

Lisenziya № 361
Sifariş № 436
Nüsxə 3630